# Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Satınalma komissiyasının bildirişi

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2024-cü il üçün xərclər smetasının 222110 – “Tikili və avadanlıqların cari təmir xərcləri” maddəsi üzrə İKT avadanlıqları üçün ehtiyat hissələrinin satın alınması məqsədilə keçirilmiş kotirovka sorğusunda iştirak edən “DİGİTSOL” Məhdud Məsuliyyətli Cəmiyyətinin təklifi şərtlər toplusunun formal tələblərinə uyğun gəlmədiyinə görə o, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 35.1.5-ci maddəsinə əsasən, “İMV.MEDİA” Məhdud Məsuliyyətli Cəmiyyətinin uyğunluq göstəriciləri kotirovka sorğusunun tələblərinə uyğun gəlmədiyinə görə o, sözügedən qanunun 35.1.1-ci maddəsinə əsasən Satınalma komissiyasının 10.07.2024-cü il tarixli, 03 nömrəli qərarı ilə satınalmadan kənarlaşdırılmışdır.

Satınalma komissiyasının bu qərarı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 18.07.2024-cü il tarixli, AİBNDX/SQ-5296/2024 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Satınalma komissiyası